Ələkbər Dağlaroğlu

# O DAĞLARDA QALIBDIR

qanun nəşriyyatı

**Ələkbər Dağlaroğlu. O DAĞLARDA QALIBDIR**
Bakı, Qanun Nəşriyyatı, 2023, 80 səh.

Ölçü: 130x200 mm
Qapaq: yumşaq
Çapa imzalandı: 17.07.2023

| | |
|---|---|
| Redaktor: | Əyyar Tahir |
| Mətn dizaynı: | Sevil Rafail |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-748-3

© Ələkbər Dağlaroğlu, 2023

© Qanun nəşriyyatı, 2023

## ƏLƏKBƏR DAĞLAROĞLU YARADICILIĞI

Sayca 13-cü kitabı işıq üzü görən Ələkbər Dağlaroğlunu elə bilirəm yenidən oxuculara ətraflı təqdim etməyə ehtiyac yoxdur. Çünki, qisa müddət ərzində 13 kitabın işıq üzü görməsi Ələkbər Dağlaroğlu haqda çox şey, ən əsası oxucuları tərəfindən necə sevildiyini, çıxan hər bir kitabının necə rəğbətlə qarşılandığını deyir.

Uzaq qarlı-şaxtalı Sibirin Norilsk şəhərində yaşamağına baxmayaraq, bir an belə öz doğma Azərbaycanını, el-obasını, doğma Masallı rayonunun Dəmbəlov kəndini unutmayan Dağlaroğlunun şeirləri oxucularının qəlbinə bir istilik, sakitlik, rahatlıq gətirir. İnana bilmirsən ki, belə soyuq diyarda yaşayan bir kəs ürəkləri isidən belə şeirlər yaza bilər. Deməк, əsas məsələ genin formalaşmasındadır və Ələkbər Dağlaroğlunun geni mülayim iqlimli, təmiz havalı, saf bulaqlı, quşların cəh-cəh vurduğu cənnətməkan bir bölgədə formalaşıb. Bu səbəbdən də şeirlər belə həlim, ürəkoxşayan, qəlbəyatandır.

Dünyada qlobal istiləşmə gedir, buzlaqlar əriyir. Bununla yanaşı elə bilirəm Ələkbər Dağlaroğlunun şeirləri də insanların qəlbindəki buzları əridir, onları bir-birinə daha yaxın, daha doğma, daha əziz olmağa, bir-birilərinin qayğısına qalmağa çağırır.

Ələkbər Dağlaroğlu yaradıcılığı qaynar bir bulaqdır və mən oxucuları bu bulağın suyundan içərək mənən saflaşmağa cağırıram.

*Elman Rüstəmov*
*Yazıcı-publisist*

# *Qalacağam mən*

Bədənim kədərdən cadar-cadardır,
İntizar içimdə uca bir dağdır.
Nə qədər bədənim hələ ki sağdır,
Dönüb atəşlərə yanacağam mən,
Eşqimlə, sevgimlə qalacağam mən.

İsidib eşqimlə qalan ömrümü,
Bölüb pay verərəm qərib könlümü.
Tükənən ömrümü, qalan ömrümü,
Dönüb atəşlərə yanacağam mən,
Eşqimlə, sevgimlə qalacağam mən.

Hazıram həmişə, gərib sinəni,
Qoy mərdin gülləsi öldürsün məni.
Qovaram dağların dumanın, çənin
Dönüb atəşlərdə yanacağam mən,
Eşqimlə, sevgimlə qalacağam mən.

Yox edib illərin intizarını,
Əridib Taymırın soyuq qarını.
Qoruyub elimin ismət-arını
Dönüb atəşlərdə yanacağam mən,
Eşqimlə, sevgimlə qalacağam mən.

*29.03.2019.*

# *Yolumu gözləmə, bir də gəlmərəm*

Boylanıb baxırsan mən gedən yola,
Ürəyin həsrətlə hey dola-dola.
İnanma, çətin ki sən deyən ola,
Yolumu gözləmə, bir də gəlmərəm.

Mən sənə eşq verdim, sevgimi verdim,
Təki sən xoşbəxt ol, özüm də dedim.
Hayına səs verdim, mən sənə döndüm,
İnanma, çətin ki sən deyən ola,
Yolumu gözləmə, bir də gəlmərəm.

Qınama nə məni, nə də özünü,
İllər ayrı saldı bilsən düzünü.
Göndər gələnlərlə mənə sözünü,
İnanma, çətin ki sən deyən ola,
Yolumu gözləmə, bir də gəlmərəm.

Ömrünün sərt dəyən küləyinə döz,
Həsrət acı, ağrı, ələyinə döz.
Fələyin amansız kələyinə döz,
İnanma, çətin ki sən deyən ola,
Yolumu gözləmə, bir də gəlmərəm.

Nə ürəyini üz, nə də ki ağla,
Nə də ki başına sən qara bağla.
Sən mənim xətrimə çalış ki çağla,
İnanma, çətin ki sən deyən ola,
Yolumu gözləmə, bir də gəlmərəm.

*Aprel 2019.*

## *Hara aparır*

Üstümə yağsa da soyuq qar, dolu,
Soyumur ömrümdə həsrətin yolu.
Xəyallar yapışıb çəkərək qolu,
Bilmirəm özümü hara aparır,
Gələcək günəmi görə aparır?

Özüm də bilmirəm hara aparır,
Genişə aparır, dara aparır.
Bəlkə ilk eşq yolum yara aparır
Bilmirəm özümü hara aparır,
Gələcək günəmi görə aparır?

Aparır ömrümü neçə yol, cığır,
Gedirəm, neynəyim olsa da ağır.
Mən hünər dəryası, qalmışam sağır.
Bilmirəm özümü hara aparır,
Gələcək günəmi görə aparır?

Qoy məni aparsın illər özünlə,
İstərəm olanı görüm gözümlə.
İllər susub qalıb, yansın közümlə,
Bilmirəm özümü hara aparır,
Gələcək günəmi görə aparır?

*25.05.2019.*

## *Gözümü kör edir acı qəm yaşı*

Söndürün içimin, alovun, odun,
Bağlayın ömrümə kədərin yolun.
Bu xəstə könlümə bir təbib olun.
Yox olsun ömrümün bu həsrət daşı,
Gözümü kör edir acı qəm yaşı.

Nadanlar içində yaşadım ömrü,
Daşıdım köksümdə qırılmış könlü.
Çoxdandır olmuşam atəşli, közlü.
Yox olsun ömrümün bu həsrət daşı,
Gözümü kör edir acı qəm yaşı.

Qəlbimdə olsa da neçə bahar, yaz,
Min nəğmə, min mahnı, min qəzəl avaz.
Bir aşıq istərəm yanıq çalsın saz.
Yox olsun ömrümün bu həsrət daşı,
Gözümü kör edir acı qəm yaşı.

Nə var mənə gərək, nə də ki dövlət,
Bircə eşitməyin, kimsədən töhmət.
Mən kiməm, nəçiyəm - verilsin qiymət.
Yox olsun ömrümün bu həsrət daşı,
Gözümü kör edir acı qəm yaşı.

*30.03.2019.*

## *Bütün sən güllərdən, ətirli gülüm*

*(Ömür-gün yoldaşım Zərifə xanıma ithaf)*

Eşqimin əzəli , nəğmə, qəzəli,
Ömür taleyimə oldun məzəli.
Ellər yaraşığı, oba gözəli,
Həyatım, iqbalım, sən ömür-günüm,
Sən güllər içində ətirli gülüm.

Sevincim, kədərim, şirin, həm acım,
Üzdə təbəssümüm, dərdə əlacım.
Ümidim, inamım, başımda tacım.
Həyatım, iqbalım, sən ömür-günüm,
Sən güllər içində ətirli gülüm.

Dünənim, bu günüm, həm də səhərim,
Həyat yollarında mənim məhvərim.
Şirin arzularım, bəzən qəhərim.
Həyatım, iqbalım, sən ömür-günüm,
Sən güllər içində ətirli gülüm.
İşığım, nəfəsim, ayım, günəşim,
Şirin arzulara dönən gülüşüm.
Tanrıdan payıma mənə düşənim.
Həyatım, iqbalım, sən ömür-günüm,
Sən güllər içində ətirli gülüm.

*Yanvar 2020.*

## *Qeyrət, vicdan, mənlə bəstdə*

Qan ağlayır Qarabağım,
Həsrətlidir hər bir çağım.
Saralıbdır gözdə ağım,
Gözləməkdən oldun xəstə,
Qeyrət, vicdan mənlə bəstdə.

Ağlar qalıb obam, elim,
Yiyəsizdir saysız evim.
Mən özümü necə sevim?
Gözləməkdən oldun xəstə,
Qeyrət, vicdan mənlə bəstdə.

Yollar bağlı, gedənim yox,
Ürəyimə dəyibdir ox.
Ardımca hey deyənim çox.
Gözləməkdən oldun xəstə,
Qeyrət, vicdan mənlə bəstdə.

Anam, bacım geyib qara,
El-oğullar düşüb dara.
Neçə ildir qəlbim yara.
Gözləməkdən oldun xəstə,
Qeyrət, vicdan mənlə bəstdə.

Yoxa dönüb, bir dinc anım,
Edir mənə zülm yamanım.
Dönür ilə, hey zamanım.

Gözləməkdən oldun xəstə,
Qeyrət, vicdan mənlə bəstdə.

Harda gəzim haqq-ədalət,
Yandırır məni qiyamət.
Dünya susub, qalıbdır mat.
Gözləməkdən oldum xəstə,
Qeyrət, vicdan mənlə bəstdə.

Ağlar qaldı neçə yarım,
Öldürür məni bu arım.
Düşmənlərə qaldı varım.
Gözləməkdən oldum xəstə,
Qeyrət, vicdan mənlə bəstdə.

Gözlərimdə yaş qalmayıb,
Daha məndə baş qalmayıb.
Ömür gedib, yaş qalmayıb.
Gözləməkdən oldum xəstə,
Qeyrət, vicdan mənlə bəstdə.

Yollar bağlı ocaqlara,
Qalıb həsrət qucaqlara.
Əldən çıxan o çağlara.
Gözləməkdən oldum xəstə,
Qeyrət, vicdan mənlə bəstdə.

Məzarlarım qaldı qərib,
Ahım məni sanki sərib.